## NAXÇIVAN MUXTAR RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

# Q Ə R A R

### "Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2013-cü il 18 may tarixli 51 nömrəli qərarı ilə təsdiq edilmiş "Müvəqqəti saxlanc anbarlarının və gömrük anbarlarının tiplərinə, quruluşuna, təchizatına, orada yerləşdirilən mallarla əlaqədar əməliyyatlara, uçot və hesabatın aparılmasına, gömrük nəzarətinin həyata keçirilməsinə, anbar sahibinə dair Tələblər"də dəyişikliklər edilməsi haqqında

"Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 3 may tarixli 73 nömrəli qərarı ilə təsdiq edilmiş "Müvəqqəti saxlanc anbarlarının və gömrük anbarlarının tiplərinə, quruluşuna, təchizatına, orada yerləşdirilən mallarla əlaqədar əməliyyatlara, uçot və hesabatın aparılmasına, gömrük nəzarətinin həyata keçirilməsinə, anbar sahibinə dair Tələblər"də dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 6 oktyabr tarixli 388 nömrəli qərarına uyğun olaraq Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2013-cü il 18 may tarixli 51 nömrəli qərarı ilə təsdiq edilmiş "Müvəqqəti saxlanc anbarlarının və gömrük anbarlarının tiplərinə, quruluşuna, təchizatına, orada yerləşdirilən mallarla əlaqədar əməliyyatlara, uçot və hesabatın aparılmasına, gömrük nəzarətinin həyata keçirilməsinə, anbar sahibinə dair Tələblər"də aşağıdakı dəyişikliklər edilsin:

1. 2.1.1-ci yarımbənddən "Naxçıvan Muxtar Respublikasının Dövlət Gömrük Komitəsi (bundan sonra - Komitə) tərəfindən verilmiş lisenziya əsasında təsis edilmiş və" sözləri çıxarılsın.

2. 2.1.2-ci yarımbənddən "lisenziya əsasında" sözləri çıxarılsın.

3. 3.5-ci bənddə "Komitənin" sözü "Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin" sözləri ilə əvəz edilsin.

4. 7.1-ci bənd ləğv edilsin

**Naxçıvan Muxtar Respublikasının**

**Baş naziri:** **Ə.Baxşıyev**

«20» oktyabr 2016-cı il

№101